**Mübariz Malik oğlu Məmmədli**

**UOT:330.8;JEL:B30,B31,G18.**

# İqtisadi düşüncə və ona təsir edən amillər

***Xülasə***

*Məqalədə iqtisadi düşüncənin formalaşmasına təsir edən amillər tədqiq edilmişdir. İqtisadi düşüncənin formalaşmasında şəxsi maraqların və dinin rolu analiz edilmişdir. İnsanın sahib olduğu fərdi bioloji xüsusiyyətləri və psixoloji vəziyyəti, cəmiyyətin sosial-mədəni normalarını mənimsəmə dərəcəsi, sosial-mədəni dəyərlər, cəmiyyətdə verilən rolu qəbuletmə və yerinə yetirmə potensialı, ya da hadisələr arasındakı əlaqələri araşdırmaq bacarığının iqtisadi qərarvermə və ya seçim prosesində rolu diskusiya edilmişdir. İqtisadi düşüncənin formalaşmasına təsir edən amilləri daha yaxşı izah edə bilmək üçün cəmiyyətin inkişaf mərhələləri analiz edilmişdir. Bu mərhələlərdə texnoloji yeniliklərdən, fiziki və idrak qabiliyyətinin genişləndirilməsindən, qlobal inteqrasiyaya meylindən və sistem dəyişikliklərindən bəhs edilmişdir. Eyni zamanda iqtisadi düşüncənin açıq şəkildə əks olunduğu iqtisadi fəaliyyətlərin inkişaf mərhələləri beş dövrə ayrılmışdır. İbtidai cəmiyyətlərdə iqtisadi fəaliyyətlər, əkinçiliyə əsaslanan kənd təsərrüfatı, kiçik əl işlərinə əsaslanan şəhər təsərrüfatı, XV-XIX əsrlərdə iqtisadi fəaliyyətlər, XX-XXI əsrdə iqtisadi fəaliyyətlər olaraq qruplaşdırılan hər bir iqtisadi fəaliyyət dövrü ayrılıqda tədqiq edilmişdir.*

***Açar sözlər:*** *iqtisadi düşüncə, sosial-mədəni dəyərlər, din, şəxsi maraq*

## Giriş

İqtisadi qərar qəbul edən insanlar bütün vəziyyətlərdə eyni formada davranmırlar. Bu baxımdan iqtisadiyyatın ilk əsas prinsipi şəxsi maraqların təmin edilməsi kimi qəbul edilir. Şəxsi maraq mənfəəti maksimum dərəcədə artırmaq və zərərləri minimuma endirmək istəyi kimi başa düşülür. Bu zaman insan eqoist bir varlıq kimi təsvir edilməklə yanaşı, sosioloji, psixoloji və etik düşüncələrdən də təcrid edilmiş qəbul edilir. İnsanlıq tarixinin ilk illərindən başlayaraq insanlar yaşamaq və ehtiyaclarını ödəmək üçün müxtəlif fəaliyyətlərlə məşğul olmuşlar. Formalaşan iqtisadi düşüncə nəticəsində aparılan fəaliyyətlər təşəbbüskarlıq kimi qiymətləndirilsə də, həmin dövrdə məhsuldarlıq olmadığı üçün onu real bir biznes olaraq qiymətləndirmək mümkün olmamışdır. Ancaq ilk oturaq həyata keçən cəmiyyətlərdə insanların istehsala başlaması və ehtiyaclarından daha çox məhsul istehsal etməsi nəticəsində dəyişən iqtisadi düşüncə və davranışlar (məsələn, barter metodunun tətbiqi) bu fəaliyyətlərin yeni fazasını meydana gətirmişdi. Həyatını davam etdirmək və cəmiyyətdə müəyyən bir mövqeyə sahib olmaq insanın iqtisadi vəziyyətindən asılıdır. İqtisadiyyat insanın, habelə cəmiyyətin rifahı və xoşbəxtliyinə güclü şəkildə təsir edir. Bir tərəfdən aparılan iqtisadi fəaliyyətlər son nəticədə insanlar arasındakı münasibətlərin strukturuna, digər tərəfdən isə formalaşan iqtisadi vəziyyət cəmiyyətlərin iqtisadi inkişafına təsir edir. Qeyd edilənlərlə yanaşı, insanın cəmiyyətdə tutduğu mövqe yalnız iqtisadi aspektdən qiymətləndirilməməlidir. Belə ki, insanın sahib olduğu fərdi bioloji və psixoloji struktur, cəmiyyətin sosial-mədəni normalarını mənimsəmə vəziyyəti, sosial-mədəni dəyərlər, verilən rolu qəbuletmə və yerinə yetirmə gücü, hadisələr arasındakı əlaqələri araşdırmaq bacarığı və təbii ki, dini görüşləri onun iqtisadi düşüncə və davranışında rol oynayır [1-2].



*©Mübariz Malik oğlu Məmmədli iqtisad üzrə fəlsəfə doktoru. Azərbaycan Dövlət İqtisad Universiteti, UNEC Biznes Məktəbi,"İqtisadiyyat və biznesin idarə edilməsi" kafedrasının dosenti.E-mail: mubariz.mammadli@unec.edu.az*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**Ədəbiyyatların təhlili**

**İqtisadi insan: şəxsi maraq**

İqtisadiyyatın əsasını formalaşdıran iqtisadi insan (homo economicus), maksimumu əldə etmək üçün adətən başqaları haqqında düşünmədən hərəkət edir. Onda digərlərini başa düşmək, özünü günahkar hiss etmək, vicdanlı olmaq, fədakar davranmaq instinkti yoxdur. O, yalnız şəxsi maraqlarını güdərkən iqtisadi inkişafa təkan versə belə, əxlaqlı olmaqdan uzaqlaşa və sosial ədalətə zərər verə bilər [3]. İqtisadi insanın əsasını formalaşdıran hedonizm və fərdiyyətçilik Qədim Yunan və Roma mədəniyyətlərində inkişaf etmiş Stoik və Epikür perspektivdən irəli sürülmüş prinsiplərdən bəhrələnmişdir. İqtisadi təlimlərdə "təbii qanunlar" anlayışının tətbiq olunduğu Stoa hərəkatına görə, insan dövlətə və ya Allaha bağlı olmayıb, yalnız öz ağlının gücünə arxalanaraq təbiətə uyğun yaşamalıdır. Epikurizmdə isə, insanların qorxulardan və xurafatlardan biliklə xilas ola biləcəyi, xoşbəxt bir həyatın minimum ağrı və maksimum həzz almaqdan ibarət olduğunu, habelə insanın ən güclü həzzləri hiss etməyə çalışmalı olduğunu qeyd edir [4]. Homo economicus fərziyyəsinə əsasən, iqtisadi rasional insan özünə kifayət edəcək qədər qazanc əldə etsə də, həmişə aza nisbətən çoxu seçmək və ya çoxu üstün tutmaq prinsipinə əsaslanır. Nəticədə, yalnız öz məmnuniyyətini düşünən "homo economicus"in apardığı həyat mübarizəsində maksimum zövq almaq üçün hər bir yol seçilə bilər.

Bəzən isə, müvəffəqiyyət yalnız maddi qazanc kimi qəbul edilir. İqtisadi qazanc əldə etməyin motivasiyası olaraq qəbul edilən pula məhəbbət əslində maddi zövq və hər şeyə sahib olmaq arzusundan yaranır. Bu cür istək isə, insan təbiətinə xas bir xüsusiyyət olan xəsislikdən doğur. Daima öz mənafeyini düşünən insan, fayda və zərər münaqişəsi içində olur. Belə ki, insanlar hər hansı bir davranışı mənimsəməmişdən əvvəl, qarşılaşdığı vəziyyətlə bağlı olaraq nəyin faydalı, ya da nəyin zərərli olacağını düşünür və ona uyğun bir mövqe seçirlər [5]. Bəzi hallarda bəzi insanlar müəyyən bir iqtisadi davranış növünü mənimsədiyi halda, digərləri isə əks bir iqtisadi düşüncə və davranışı seçir. Məsələn, bir sahibkar "dövlətə ödəməli olduğum vergini tam həcimdə ödəməliyəmmi?" sualını özünə verə bilər. Bu sahibkar verməli olduğu qərarda qazancının müəyyən bir hissəsini dövlətə mənfəət vergisi olaraq ya ödəyəcək, ya da ödəməyəcək. Vergi öhdəliyini yerinə yetirməzsə, sahibkar əlavə bir qazanc əldə edəcəkdir. Lakin, onun haqsız qazanc əldə etdiyi vergi orqanları tərəfindən müəyyənləşərsə, yəni ödəməli olduğu vergidən yayındığı aşkarlanarsa onda ödəməli olduğu vergi məbləğindən daha yüksək miqdarda ödəniş edəcəkdir. Belə bir vəziyyətdə sahibkar ödəyəcəyi cəza ilə qazanacağı əlavə qazancı müqayisə edəcək və bu göstəricilərə əsasən qərar qəbul edəcəkdir.

Şəxsi marağı təmin etmək əlbəttə ki, insan təbiətinin ayrılmaz bir hissəsidir [6]. Ancaq insanlar iqtisadi qərarlarını yalnız şəxsi maraqlarına əsasən vermirlər, bəzən sosial maraqların da qayğısına qalırlar. Bu səbəbdən insanın iqtisadi qərarvermə və ya seçim prosesində şəxsi və ya sosial maraqları hansı dərəcədə nəzərə alacağı vacibdir. Şəxsi maraq insan psixologiyasının zəif tərəfi olduğu halda, ümumi ictimai marağı qorumaq xeyirxahlığın təşviqedici mənbəyidir. İnsanlar təbiət etibarilə sosial maraqlara sahib olub, cəmiyyətə aid olmaq və başqalarına kömək etmək, tövhə vermək arzusunda olurlar [7].

**Dini görüşün iqtisadi düşüncə və davranışın formalaşmasında rolu**

İnsan davranışı duyğulara əsaslanaraq ağılla idarə olunur [8]. Bu duyğuların formalaşmasınatəsir edən amillərdən biri dindir. Həyatın mənəvi hissəsini təşkil edən dini görüş iqtisadi düşüncə və davranışlara, başqa sözlə fərdi və sosial olaraq bütün iqtisadi fəaliyyətlərə və ya fəaliyyətsizliklərə psixoloji təsir göstərir. Çünki insan düşünən bir varlıq olmaqla yanaşı, eyni zamanda müəyyən inanca sahib bir varlıqdır. Düşüncənin əsasını təşkil edən ağılın kifayət etmədiyi hallarda, insan davranışı onun sahib olduğu inanca əsasən formalaşır. Din insan həyatının gözlə görülən hissəsinə hakim olmaqla yanaşı, həm də onun



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

mənəvi aləmində güclü təsirə sahibdir. Belə ki, din həyatın müxtəlif sahələrinə toxuna bildiyi kimi, bu sahələrlə bağlı insanın düşüncə və davranışlarının formalaşmasına təsir edir.

Beləliklə, insan həyatında əhəmiyyətli bir yer tutan din həm insanların davranışlarını formalaşdırır, həm də onların digər fərdlərlə münasibətlərinə və əxlaqi davranışlarına təsir göstərir [9]. İnsan bəzən dinin tələblərini yerinə yetirmək, qoyduğu qadağalara əməl etmək və faydalı olacağına inandığı üçün düzgün, dürüst, çalışqan və etibarlı olmağa çalışa bilər. Bəzi insanlar dini hökmlərə riayət etməyə çox həssas olduğu halda, bəziləri isə dinə tamamilə qarşı çıxırlar.

Dini yanaşma insanda hər hansı bir obyektə, hadisəyə qarşı müsbət və ya mənfi bir münasibət formalaşdırdığı üçün, onun özünə bəzən müsbət, bəzən isə əksinə, mənfi münasibət yarana bilir. Başqa sözlə, insan istək və ehtiyaclarını ödəyərkən və ya problemlərini həll etmək üçün səy göstərərkən dinin qoyduğu hökmlərlə üzləşir. Bu hökmlər əgər insanın istəklərinə çatmasına mane olursa, onda onlara qarşı mənfi münasibət yarana bilər. Əksinə insanın istəklərinə çatmasına kömək edən dini hökmlərə isə insan müsbət bir münasibət bəsləyir. Məsələn, dinin işləməyi əmr edən hökmləri işləmək istəyən insanlarda bu və bənzər hökmlərə qarşı müsbət münasibət yaradacaqdır. Əksinə, işləmək istəməyən bir insan üçün işləməyi əmr edən dini hökmlər bir maneə kimi qəbul ediləcəkdir.

Dinlərin insanların iqtisadi düşüncə və davranışında göstərdiyi təsirə nəzər salmaq üçün onlara ayrı-ayrı baxmaq faydalı olacaqdır. İqtisadi aspektdən yəhudi düşüncəsinə nəzər saldıqda, çox işləmək və çox pul qazanmaq cənnətə gedə bilmək üçün bir yol kimi qəbul edilir. Yaşamaq üçün hər hansı bir işlə məşğul olmağın heç bir qüsuru/eybi yoxdur və yaşamaq üçün müəyyən bir standartlar olmalıdır. Yəhudi dinində faizə yanaşma fərqlidir. Bu dinə görə bir Yəhudinin öz dinindən olan bir qardaşından faiz alması qəti qadağandır. Yəhudi olmayan birindən isə faiz almağa icazə verilirdi. Ancaq bu faiz qadağası iqtisadi inkişafın qarşısını alırdı. Bunun üçün Yəhudilər günümüzdə Pravoslav Yəhudilər tərəfindən istifadə olunan "heteriska", yəni "iş görmək üçün icazə" kimi tanınan bir model hazırladılar. Bu modelə görə, borc verən əldə edilən mənfəətin müəyyən bir hissəsini ala bilərdi. Bununla belə, bu qayda yalnız bizneslə əlaqəli borc götürülən hallara tətbiq edilir və zəruri ehtiyacların ödənilməsi üçün verilən borca faiz qadağası hələ də qalmaqdadır. Yəhudi dini istehlakçıların aldadılmasına və biznes etikasına zidd olan bütün hərəkətlərə yol vermir [10].

İnsanların iqtisadi düşüncə və davranışına təsir edən digər mühim din Xristianlıqdır. Xristianlıqda iqtisadi fikirlərlə bağlı bir iddia irəli sürərkən onun məhzəblərinə nəzər salmaq mütləqdir [11]. Çünki məzhəblər arasında kəskin fərqlər mövcuddur. Bu fərq xüsusilə, katolik və protestant məzhəblərinin iqtisadi fikirlərində müşahidə edilir.

Katolik inancının pul və sərvətlə bağlı düşüncəsinə nəzər saldıqda, orada zənginlərin göylərin səltənətinə çətinliklə girəcəyinin qeyd edildiyi görülür. Bir dəvənin iynə dəliyindən keçməsinin varlı bir insanın Allahın hökmranlığına girməsindən daha asan olduğu qeyd edilir. Matta İncilinə görə, İsa peyğəmbər məsləhət verdiyi şagirdlərinə bütün mal və mülklərini paylamağı və beləliklə də göydəki daimi xəzinəyə çata biləcəklərini söyləyir. Bundan başqa kilsənin ən güclü olduğu orta əsrlərdə katolik tədris əmək fəaliyyətinin məqsədinin var-dövlət içində yaşamaq deyil, əbədi həyata qovuşana qədər həyatı davam etdirmək olduğunu və sərvət dalınca getməyin tamah bataqlığına düşmək olduğunu vurğulamışdır. İqtisadi inkişafı dinlə əlaqələndirən məşhur alimlərdəm Weberə görə, əksər cəmiyyətlər və mədəniyyətlər rasionallığa sahib olmadığı üçün müasir kapitalizmə keçə bilməmişlər. Onun fikrincə, kapitalizm iqtisadi zehniyyətin rasionallaşmasının bir təzahürüdür. Qərbdə dinin rasionallaşması əsasən xristianlıqda islahların aparılması və xüsusilə protestantlığın yaranması nəticəsində baş vermişdir. Protestantlıq Qərbin iqtisadi inkişafı üçün zəruri olan kapitalist düşüncəni inkişaf etdirmişdir [12].



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Protestant inancı ilə katolik inancının iqtisadi düşüncəsi bir-birinə ziddir. Protestantlara görə, insanın bu dünyadakı həyatının əsl məqsədi axirətdə qurtuluşu təmin etməkdir. Buna görə də bu dünyadaki sərvətin heç bir ziyanı yoxdur. Belə ki, var-dövlət Allahın bir lütfüdür və insanın öz peşəsində əldə etdiyi uğur onun seçilmiş olduğunun bir nişanəsidir. İslam dininin iqtisadi düşüncə və davranışlara təsirinə nəzər saldıqda, onun hər bir sahədə iqtisadi ədalətin bərqərar olmasına çalışdığını qeyd etmək olar. Belə ki, İslam dininin iqtisadi aspektdən qiymətləndirilməsi, onun əsas məqsədinin insanların rifahının yüksəldilməsinə xidmət etdiyini söyləmək olar. İslam iqtisadçılarına görə, İslam dini fərdi iqtisadi qərar qəbul edən şəxslərdən aşağıdakı davranışlara əməl olunmanı gözləyir [13]:

- İqtisadi vahidlər istehlak, qənaət, investisiya və məşğulluq kimi digər iqtisadi fəaliyyətlərdə başqalarını da nəzərə alaraq sosial məqsədlərə xidmət etməlidir. Nəzərdə tutulan sosial məqsədlər aşağıdakılardır:
  (i) bütün insanların əsas ehtiyacını ödəmək,
  (ii) gəlir və sərvət bölgüsündə ədaləti təmin etmək,
  (iii) sabitlik
  (iv) iqtisadi inkişaf.
- İqtisadi vahidlər yuxarıda qeyd olunan sosial məqsədləri də nəzərə alaraq, şəxsi maraq və qazanclarla (fayda və mənfəətin artırılması) motivasiya olunmalıdırlar.
- İnsanlar haram olanlardan çəkinərək məqbul hesab edilə biləcək istehlaka yönəlməli və israfçılıqdan uzaq durmalıdırlar.
- İnsanlar sosial məqsədlər daxilində əməkdaşlıq və qarşılıqlı məsləhətləşmə (işçilər və menecerlər, istehlakçılar və istehsalçılar, dövlət və özəl sektor arasında) etməlidirlər.
- Fərdi gəlir sahiblərinin yığım qərarı investisiya qoyuluşuna yönəldilməlidir.

İslam dinində insanın müəyyən keyfiyyətlərə -rasional, iradəli, əxlaqlı, xəsis, mal-mülk sevən- sahib olduğu görülür. Bu din mahiyyət etibarilə insanlara öz mənfəətlərini nəzərə alaraq, orta yol seçməyi tövsiyə edir.

**Xarici mühitin iqtisadi düşüncə və davranışın formalaşmasında rolu**

Ümumiyyətlə, insanın iqtisadi düşüncəsinin formalaşması prosesini nəzərə alsaq, deyə bilərik ki, insanlar bu düşüncələrlə doğulmurlar. Başqa sözlə, insanların sahib olduğu düşüncə və davranışlar daha sonra qazanılır. Buna görə də xarici mühitin və orada baş verən hadisələr insanın düşüncə və davranışının formalaşmasında mühüm yer tutur [14]. Belə ki, insanların düşüncə və davranışları bəzən sosial normaları və mədəni dəyərləri əks etdirir [15]. İnsanın iqtisadi düşüncə və davranışı təcrübə, təqlid, sosial öyrənmə və möhkəmləndirmə yolu ilə formalaşır. Ancaq insanın iqtisadi düşüncə və davranışı fərqli səbəblərdən zamanla dəyişə bilər. Təhsil, təlim və ya iqtisadi inkişaf kimi bəzi göstəricilər insanın iqtisadi düşüncə və davranışına təsir edir. Məsələn, istehlakçı davranışı hər insanda müxtəlif formalarda baş verir. Bəzi istehlakçılar yalnız ehtiyac duyduqları üçün satın alır, bəziləri isə göstəriş məqsədli istehlak edir. Bəzi istehlakçılar istehlak zamanı yalnız özlərini düşünərkən, bəziləri isə ətrafdakı insanları nəzərə alaraq mal və ya xidmət seçir.

İnsanların düşüncə və davranışının dəyişməsinin bir neçə səbəbi vardır. Məsələn, bizneslə məşğul olan müəssisələrin öz məhsullarını daha çox sata bilməsi üçün reklamdan istifadə etməsi əslində insanların düşüncə və davranışını dəyişdirmək üçün tətbiq edilən bir vasitədir. Bir qrupun və ya makroiqtisadi səviyyədə ölkənin təhsil səviyyəsini yüksəltmək üçün aparılan siyasət, cəmiyyətdə yeni bir sistemin qurulması və ya həyat tərzinin formalaşması, etik dəyərlərin aşılanması, əmək və iş vərdişlərinin mənimsənilməsi və s. addımlar insanların iqtisadi davranış və düşüncəsinin dəyişməsinə təsir edir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

İnsanların iqtisadi düşüncə və davranışı ölkənin iqtisadi inkişafı üçün böyük əhəmiyyət kəsb etdiyindən bu düşüncə və davranışın necə formalaşacağı və həyata keçəcəyi vacibdir. Belə ki, iqtisadi düşüncə və davranışı dəyişən insanın baş verən dəyişiklik prosesinə könüllü və ya məcburi daxil edilməsi, baş verən dəyişiklik tempinə təsir edəcəkdir. Belə ki, məcburiyyət insanların iqtisadi düşüncə və davranışında baş verəcək dəyişikliyi nisbətən ləngidir və çətinləşdirir. Əksinə, insanların dəyişiklik prosesində könüllü olaraq iştirakı daha yüksək nəticə əldə edilməsinə kömək edir. Nümunə olaraq günümüzdə baş verən hadisələri, xüsusilə COVİD-19 virusu nəticəsində kəskin sürətdə artan elektron əməliyyatları göstərmək olar. Dünyanın müxtəlif ölkələrində bazarların əyani formasının bağlanması və satışın qismən, bəzən isə tamamilə onlayn həyata keçirilməsi insanların düşüncə və davranışında dəyişikliklər yaratdı. Baş verən dəyişikliyə könüllü olaraq qoşulan insanlar məcburi qaydada əməl edənlərlə müqayisədə daha sürətli adaptasiya prosesi yaşadılar. Məcburi dəyişikliklərdə insanlar davranışındakı dəyişikliyi ətraf mühitin qoyduğu şərtlərlə əlaqələndirir və tələb olunan davranış üçün özünün məsuliyyət daşıdığını düşünmür.

Müxtəlif qruplara mənsub olmaq, qrup üzvlərinin iqtisadi düşüncəsinə və davranışlarına müəyyən dərəcədə təsir göstərir [16]. Qrup - ortaq sosial və mənəvi amillərə əsaslanaraq bir yerdə olan və ya ortaq bir maraq, inanc, fəaliyyət, məqsəd və s. əsasında toplaşan və ortaq bir kimliyi paylaşan insanlar qrupudur. Üzvlərin qrupla eyniləşmək istəyi insanların qrupun qəbul etdiyi düşüncə və davranışları mənimsəməsinə səbəb olur.

Qrup, öz üzvlərinin iqtisadi düşüncə və davranışlarına məhdudiyyətlər tətbiq edə bilər. Qruplar üzvlərinin iqtisadi düşüncə və davranışlarının mənbəyi olduğu üçün, hər bir üzvün davranışı qrupun sahib olduğu dəyəri əks etdirir. Bu qruplara nümunə olaraq müxtəlif təşkilatları və ya dərnəkləri göstərmək olar. Məsələn, 1847-ci ildə ilk dəfə İngiltərədə qurulan Vejetaryen Dərnəyi (The Vegetarian Society of the United Kingdom) günümüzə qədər fəaliyyətini davam etdirir. Bu dərnək hal-hazırda Böyük Britaniyanın Vejetaryen Dərnəyi olaraq fəaliyyət göstərir və onun üzvləri iqtisadi düşüncə və davranışlarında, xüsusilə istehlakla bağlı qərarlarında bənzər davranışlar göstərirlər [17].



Digər tərəfdən insanların iqtisadi düşüncə və davranışlarının formalaşmasında ailənin mühüm rolu var. Əslində ana, ata, qardaş, bacı və digər qohumlardan ibarət olan ailə kiçik bir qrupdur. Bu səbəbdən ailənin sahib olduğu ümumi düşüncə və davranışlar üzvlərin də oxşar davranışda olmasına səbəb olur. Ailədən başqa, insanın düşüncə və davranışına təsir edən qrupları - iş qrupları, dost qrupları, söhbət qrupları, musiqi qrupları, siyasi və ideoloji qruplar və s. nümunə olaraq göstərmək olar. Qeyd edilənlərlə yanaşı, insan sosial bir varlıq olaraq, bəzən mənsub olduğu qrupdan deyil, başqa bir qrupdan təsirlənir və o qupun düşüncə və davranışını mənimsəyib onlardan nümunə götürə bilir.

Gürüldüyü kimi, iqtisadi düşüncənin formalaşmasına təsir edən amillər müxtəlifdir. Bu amillərin iqtisadi düşüncəyə və onların formalaşmasına təsiri cəmiyyətin müxtəlif inkişaf mərhələlərində fərqli olmuş və cəmiyyətdən cəmiyyətə fərqlənmişdir. Macar əsilli amerikalı alim Banathi [18] cəmiyyətin təkamülünü tarixi aspektdən dörd qrupa ayırmışdır (Cədvəl 1). Banathinin görüşünə əsasən, cəmiyyətin təkamülünün hər bir mərhələsi digər mərhələnin üzərində qurulmuşdur. Ona görə, texnoloji yenilik isə baş verən dəyişikliyin ən əsas lokomotividir. Belə ki, insani ehtiyacları təmin etməyə imkan verən texnologiyalar insanın fiziki və idrak qabiliyyətini genişləndirmişdir. Başqa sözlə, Cədvəl 1 cəmiyyətin təkamülündə baş verən dəyişikliyin sürətini, həmçinin qlobal inteqrasiyaya meylliliyi və sistem dəyişikliyini əks etdirir. Bu mərhələlərin hər biri qeyd edilən dövrlərin daxilində nisbi sabitliyin mövcudluğunu göstərir. Bir mərhələdən digər mərhələyə keçid zamanı isə, daha kəskin dəyişikliklər baş verir. Bu isə, öz növbəsində cəmiyyətin təkamülünün növbəti mərhələsinin proqnozlaşdırılmasını çətinləşdirir.

**Cədvəl 1.**

**Cəmiyyətin təkamülünə tarixi baxış**

| I mərhələ | II mərhələ | III mərhələ | IV mərhələ |
|---|---|---|---|
| Ovçuluq, yığıcılıq | kənd təsərrüfatı cəmiyyəti | Sənaye cəmiyyəti | Post-sənaye cəmiyyəti |
| yarım milyon il | on min il | beş yüz il | əlli il |
| Nitq | yazı | çap | elektron ünsiyyət |
| gəzən qəbilələr | icmalar şəhər dövlətləri | milli dövlətlər | Regional/beynəlxalq (qlobal) cəmiyyətlər |
| sehrli-mif paradiqması | məntiq-fəlsəfi paradiqma | deterministik elmi paradiqma | sistemlər paradigması |
| sağ qalmaq texnologiyası | istehsal texnologiya | maşın texnologiyası | intellektual texnologiya |

Mənbə: [18] Designing Social Systems in a Changing World. New York: Plenum.

Cədvəl 1-dən görüldüyü kimi, cəmiyyətin təkamülündə qruplaşdırılan hər bir mərhənin inkişaf dövrü bir-birindən fərqlidir. Diqqət çəkən ən mühim cəhət isə, günümüzə gələnə qədər hər bir mərhələnin inkişaf dövrü kəskin şəkildə qısalmışdır. Eyni zamanda bu mərhələlərdə mövcud olmuş paradiqmalar, istifadə edilən texnologiyalar bir-birindən kəskin fərqlənir. Bu fərqlər isə təbii ki, iqtisadi fəaliyyətlərin formalaşmasına və inkişafına fərqli istiqamətdə təsir edir. İqtisadi düşüncənin açıq şəkildə əks olunduğu iqtisadi fəaliyyətlərin inkişaf mərhələlərini isə beş dövrə ayırmaq mümkündür. Bu dövrləri - ibtidai cəmiyyətlərdə iqtisadi fəaliyyətlər, əkinçiliyə əsaslanan kənd təsərrüfatı, kiçik əl işlərinə əsaslanan şəhər təsərrüfatı, XV-XIX əsrlərdə iqtisadi fəaliyyətlər, XX-XXI əsrdə iqtisadi fəaliyyətlər olaraq qruplaşdırmaq olar.

***İbtidai cəmiyyətlər.*** İbtidai cəmiyyətlərdə insanlar təbiətdən əldə etdikləri resurslardan istifadə edərək yaşayırdılar. Bu cəmiyyətlərdə insanların inkişaf yolunda atdıqları ilk addım, qida əldə etmək məqsədilə heyvanların evcilləşdirilməsi olmuşdur. Bu dövrdə torpağın becərilməsi çox kortəbii formada aparılmış, ancaq əllə və ya taxta alətlərdən istifadə edilmişdir. Bundan başqa, həmin cəmiyyətlərdə dulusçuluq, toxuculuq kimi kiçik sənətkarlıq formasında istehsal mövcud olmuşdur.

***Əkinçiliyə əsaslanan kənd təsərrüfatı.*** Ovçuluqdan və yığıcılıqdan daimi əkinçiliyə keçid dövrü insanların iqtisadi və sosial inkişaf səviyyəsini xeyli dəyişdirmişdir. Əkinçiliyə əsaslanan kənd təsərrüfatında iqtisadi vahidlər feodallar və ətraf torpaqları əhatə edən ferma və ya kəndlər olmuşdur. Torpaqlar feodallar tərəfindən vergilər müqabilində kəndlilərə verilmişdi. Barter iqtisadiyyatına əsaslanan ticarətin üstünlük təşkil etdiyi bu dövrdə fərdi biznesdən danışmaq qeyri-mümkün idi.

***Kiçik əl işlərinə əsaslanan şəhər təsərrüfatı.*** Kiçik əl işlərinə əsaslanan şəhər təsərrüfatında iqtisadi fəaliyyətin əsası olan şəhərlər sənaye və ticarət ilə məşğul olub, hər növ kənd təsərrüfatı fəaliyyətindən uzaq olmuşdular. Bu vəziyyət insanların ehtiyac duyduğu qida məhsullarını ətraf kəndlərdən almağa və emal etdikləri malları isə bu kəndlərə satmağa istiqamətləndirmişdi. Bu minvalla sadə bir əmək bölgüsü formalaşmışdır. Qeyd edilən bu əlaqə yalnız şəhərlər və kəndlər arasında deyil, istehsalçılar ilə sənətkarlar arasında da inkişaf etmişdi. Getdikcə daha çox peşələr yaranmağa başlamış, onlar da öz aralarında müxtəlif əl sənətlərinə bölünmüşdülər. XI əsrdə fərqli peşələr çox az olmuşdur, yəni peşələr ortaq xüsusiyyətə sahib olmuşdur. Məsələn, qəssab, çörəkçi, dəri istehsalçıları, tekstil ticarəti kimi fəaliyyət bölgüsü mövcud olmuşdu. Ancaq sonrakı əsrlərdə hər peşə sahəsi də öz daxilində müxtəlif qollara ayrılmışdı.

***XV- XIX əsrlərdə iqtisadi fəaliyyətlər.*** Bu dövrdə dövlətlər hər şeydən əvvəl gəlirlərini artırmağa çalışmışlar və bu istəklər onları bəzən məhsuldar fəaliyyətlərə maneə yaradan



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

siyasətləri belə tətbiq etməyə sövq etmişdir. Bu dövrdə bank işi əhəmiyyət qazanmağa başlamışdı. Xarici investisiyalara olan maraq bank fəaliyyətinin formalaşmasına təkan vermişdi. Bankçılıq gəlirli bir fəaliyyət kimi görülməyə başlandı. Məsələn, Florensiyadakı Medici Ailəsi, XV əsrdə bankçılıq sahəsində mühüm təşəbbüslər etmiş və o dövrdə dünyanın tanınmış yerlərində banklar qurmuşdu [19].

XVIII əsrdə dünyada geniş miqyaslı dəyişiklik başlamış, İngiltərədən başlayaraq "sənaye inqilabı" yaşanmışdır. Sənaye İnqilabı insan və heyvan gücünə əsaslanan istehsaldan maşın gücünə əsaslanan istehsala keçidi əks etdirir. Sənaye İnqilabı nəticəsində insanların düşüncəsi dəyişmiş və başqaları üçün məhsul istehsal etməyə başlamışdılar. Dəyişən və inkişaf edən texnologiya nəticəsində mal və xidmət istehsalı mərkəzləşmişdi. Sənaye inqilabından sonra Avropa müəssisələrinin fəaliyyət sahələri də dəyişməyə başlamışdı. Başqa sözlə, əvvəlki ticarət dövrünə xas olan xaricdən alınan ekzotik malları sataraq qazanc əldə etmək əvəzinə, artıq daha asan və ucuz əldə edilən sənaye malları istehsal edilməyə başlandı. Bu dövrdə mədənçilik fəaliyyətlərinə xüsusi diqqət yetirildi. Afrikaya investisiyalar yalnız mədən sənayesinə qoyulduğu halda, Cənub-Şərqi Asiya və Latın Amerikasına investisiyalar mədən sənayesi ilə yanaşı, həm də kənd təsərrüfatına qoyulurdu.

***XX-XXI əsrdə iqtisadi fəaliyyətlər.*** Sənayeləşmə prosesi nəticəsində iqtisadi insan tamamilə fərqli keyfiyyətlər qazanmağa başlamışdı. Baş verən bu dəyişiklik iqtisadi fəaliyyətlərin dəyərini artırmış və buna görə də cəmiyyətdəki əhəmiyyətini yüksəltmişdi. Məsələn, təşəbbüskarlıq istehsal faktoru kimi görülməyə başlamışdı. XIX əsrin ikinci yarısından sonra şirkət mülkiyyəti və idarəetmə sisteminin bir-birindən ayrılması təşəbbüskarlıq mövqeyinin yenidən qiymətləndirilməsinə və iqtisadi həyatda daha çox yer tutmasına səbəb olmuşdu. XXI əsrdə formalaşan yeni iqtisadi fazada istehlak vərdişlərindən tutmuş rəqabət anlayışına qədər hər sahədə müəyyən dəyişikliklər baş verdi. Bu iqtisadi fazada dünya iqtisadiyyatı sənayenin hakim olduğu iqtisadi strukturdan informasiya və xidmət yönümlü iqtisadi struktura çevrildi. Eyni zamanda qloballaşma və kompüterləşmə yolu ilə müasir iqtisadi sistem bütünlüklə əhatə edildi. İnformasiya və kommunikasiya texnologiyalarındakı mühüm tərəqqi müasir iqtisadi fəaliyyətlərin formalaşmasında, aparılan ticarət və bölgü mexanizmlərində yeni faza yaratdı. Beləliklə, iqtisadi düşüncə və davranışlara təsir edən amilləri Şəkil 1-dəki kimi sistemləşdirmək olar. Şəkildə əks olunduğu kimi, ictimai dəyərlər və ictimai davranışlar iqtisadi davranışların formalaşmasına təsir edir.



**Şəkil 1.**

**İqtisadi davranışlara təsir edən amillər**




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Nəticə**

Beləliklə, insanın iqtisadi düşüncə və davranışı daxili və xarici amillərin təsiri ilə, həmçinin duyğu və ağıla əsaslanaraq formalaşır. Yəni, insan davranışı duyğulara əsaslanaraq ağılla idarə olunur. İnsanların iqtisadi düşüncə və davranışına təsir edən amillər - şəxsi amillər, sosial-mədəni amillər, demoqrafik amillər, situasiya amilləri olaraq qruplaşdırıla bilər. İnsanların şəxsi keyfiyyətləri, instinkti, qavrayış səviyyəsi - şəxsi amillərə aid edilir. Ailə, sosial təbəqə, dini, mədəni irs və s. göstəricilər isə insanların iqtisadi düşüncə və davranışına təsir edən sosial-mədəni amillərdir. Yaş, təhsil, gender, peşə, gəlir səviyyəsi, coğrafi bölgə kimi xüsusiyyətlər demoqrafik amillərə daxildir. Sosial mühit, vaxt, pul, istehlakın zəruriliyi kimi göstəricilər isə - situasiya amillərinə aid edilir. Şəxsi marağın təmin edilməsi insan psixologiyasının zəif tərəfini əks etdirdiyi halda, ümumi ictimai marağı qorumaq xeyirxahlığın təşviqedici mənbəyi kimi çıxış edir. İnsanın sahib olduğu keyfiyyətləri, şəxsi və ortaq mənafelər ilə bağlı davranışlarını nəzərə alaraq, insan ehtirasları nəticəsində yaranan sosial uyğunsuzluğu və onun mənfi nəticələrinin aradan qaldırılması üçün iqtisadi düşüncə və davranışlar tənzimlənməlidir.

**Ədəbiyyat**

1. Becker. G.S., (1991), Habits, addictions and traditions (Nancy L. Schwartz Lecture. J.L. Kellogg School of Management
2. Blume, L.E., Easley, D. (1991), What has the learning literature taught us? Mimeo Dept.of Economics, Cornell University
3. Wang, L., Malhotra, D. and Murnighan, J. K. (2009). “Economics and Greed”. Presented at the 22nd Annual International Association of Conflict Management Conference Kyoto, Japan June 15 – 18.
4. Selik, M. (1980), 100 Soruda İktisadi Doktrinler Tarihi, 3. Baskı, Gerçek Yayınevi
5. Edward O'Boyle, (1994), Homo Socio-Economicus: Foundational to Social Economics and the Social Economy, Review of Social Economy 52(3):286-313
6. Vriend, N.J., (1996), Rational behavior and economic theory, Journal of Economic Behavior and Organization, Vol. 29, 263-285
7. Main, F. O., & Boughner, S. R. (2011). Encouragement and actionable hope: The source of Adler’s clinical agency. Journal of Individual Psychology, 67, 269-291.
8. Collier, M. (2011), Hume's Science of Emotions: Feeling Theory without Tears, April 2011, Hume Studies 37(1):3-18
9. Joshanloo, M. (2013). A comparison of western and Islamic conceptions of happiness. Journal of Happiness Studies, 14, 1857–1874.
10. Börk, A., Kavas, E. (2015), Yahudilik, hiristiyanlık ve islam geleneklerinde iş ahlakı: karşılaştırmalı bir analiz, Süleyman Demirel Üniversitesi Vizyoner Dergisi, 6 (13), ss.89-101.
11. Stefon, M. (2012). Christianity: History, belief, and practice, (Ed.) Matt Stefon, Britannica New York: Educational Publishing.
12. Karahöyük, M. (2013), Din ve ekonomi ilişkisi, Felsefe ve Sosyal Bilimler Dergisi, 16, s.193.
13. Erdem, E. (2015), Müslüman Bireyin İktisadi Davranış Hususiyetleri ve İslam Piyasa Geleneği, ed. Yusuf Enes Sezgin, Firdevs Bulut, İslam İktisadı ve Piyasa, İstanbul
14. Paula-Elena Diacon, (2014) From Economic Behaviour to Behavioural Economics, AUDŒ, Vol. 10, no.1
15. NEF, (2005), Behavioural economics: seven principles for policy-makers: Theoretical new economics, London
16. Sagiv, L., Roccas, S., & Oppenheim-Weller, S. (2015). Values and well-being. In S. Joseph (Ed.), Positive psychology in practice (pp.103–120). New Jersy: John Wiley & Sons, Inc
17. The Vegetarian Society, https://vegsoc.org/
18. Banathy, Bela H. (1996). Designing Social Systems in a Changing World. New York: Plenum. https://www.oasis-open.org/committees/download.php/



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

19.Brown, A. (1992). The Medici in Florence: The Exercise and Language of Power. Perth: University of W.Australia Press.

***Мубариз Малик оглы Мамедли***

***Экономическое Мышление и Влияющие Факторы***

***Резюме***

*В статье исследуются факторы, влияющие на формирование экономического мышления. Анализируется роль личных интересов и религии в формировании экономического мышления. А также исследуется роль индивидуальных особенностей и психологического состояния, степень усвоения социокультурных норм общества, социокультурных ценностей, способность принимать и выполнять отведенную в обществе роль и способность исследовать взаимосвязь между экономическими решениями.Анализируются этапы развития общества, чтобы лучше объяснить факторы, влияющие на формирование экономического мышления. На этих этапах обсуждались технологические инновации, расширение физических и когнитивных способностей, тенденция к глобальной интеграции и системные изменения. При этом этапы развития экономической деятельности, ярко отраженные в экономической мысли, делятся на пять периодов. Каждый период экономической деятельности, сгруппированной как экономическая деятельность в примитивных обществах; сельское хозяйство, основанное на земледелии; городское хозяйство, основанное на мелких ремеслах; экономическая деятельность в XV-XIX веках; и экономическая деятельность в XX-XXI веках, были изучены отдельно.*

***Ключевые слова:*** *экономическое мышление, социокультурные ценности, религия, личный интерес.*

***Mubariz Malik Mammadli***

***Economic Thought and Influencing Factors***

***Summary***

*The article examines the factors influencing the formation of economic thought. The role of personal interests and religion in the formation of economic thought is analyzed. The role of individual characteristics and psychological state, the degree of assimilation of the sociocultural norms of society, socio-cultural values, the ability to accept and fulfill the role assigned in society, as well as the ability to explore the relationship between economic decisions were discussed. The stages of development of society are analyzed in order to better explain the factors influencing the formation of economic thinking. At these stages, technological innovations, the expansion of physical and cognitive abilities, the tendency to global integration and system changes were discussed. At the same time, the stages of development of economic activities, which are clearly reflected in economic thought, are divided into five periods. Each period of economic activity, grouped as economic activities in primitive societies, agriculture based on farming, urban economy based on small handicrafts, economic activities in the XV-XIX centuries, and economic activities in the XX-XXI centuries, has been studied separately.*

***Keywords:*** *economic thought, socio-cultural values, religion, personal interest*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 28.05.2021.***
***Çapa qəbul olunub: 04.06.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*